https://musavat.com/news/rabite-ve-telekommunikasiya-sahesinde-islahat-neden-baslamalidir_742552.html?d=1

# Rabitə və telekommunikasiya sahəsində islahat nədən başlamalıdır?



## Ekspertlər sektorda dövlətsizləşmənin zəruri olduğu qənaətindədirlər

**İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sektorun dünya iqtisadiyyatında payının getdikcə artmasına səbəb olur. "Gartner" şirkətinin hesablamalarına görə, 2019-cu ildə dünya İKT bazarının həcmi əvvəlki illə müqayisədə 0,5 faiz artaraq 3,74 trilyon dollar təşkil edib. İKT-nin inkişafı ilə əlaqədar dünya ölkələrinin iqtisadiyyatında rabitə və informasiya sektorunun payı da artır. Belə ki, hazırda inkişaf etmiş ölkələrdə bu sektorun iqtisadiyyatdakı payı 7-12 faiz arasında dəyişir. Azərbaycanda isə mobil rabitə istisna olmaqla, dövlətin əlində olan rabitə və informasiya sektorunun iqtisadiyyatda payı çox cüzi rəqəmlərlə ifadə olunmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə ölkə üzrə istehsal olunan Ümumi Daxili Məhsulun cəmi 1,8 faizi informasiya və rabitə sektorunun payına düşüb. Müqayisə üçün qeyd edək ki, bizim kimi resurs ölkəsi olan Rusiyada bu göstərici 3.5 faiz təşkil edir.**

Azərbaycanda rabitə və informasiya sektorunun mühüm hissəsi dövlətin mülkiyyətindədir. Mütəxəssislər hesab edirlər ki, bu sektorda fəaliyyət göstərən dövlət müəssisələrinin idarəçiliyində ciddi problemlər mövcuddur.

***İqtisadçı-ekspert Rövşən Ağayevin sözlərinə görə, sektorun iqtisadiyyatda payı az olsa da, son 10 ildə böyümə tempi ən yüksək olan 2 iqtisadi fəaliyyət sahəsindən biri olub:***



“Statistika Komitəsinin 2010-cu ilin müqayisəli qiymətləri ilə apardığı hesablamaya görə, 2010-2017-ci illərdə ümumilikdə Azərbaycan iqtisadiyyatı üzrə real böyümə 9 faiz olub. Lakin bu göstərici ticarət üzrə 41, kənd təsərrüfatı üzrə 24, emal sənayesi üzrə 20, tikintidə 19 faiz təşkil etdiyi halda, rabitə və informasiya sektoru real olaraq 2 dəfə artıb. Son illər “rabitə və informasiya” sektoru üzrə xidmətlərin ümumi dəyərinin təxminən 75 faizi rabitə, 25 faizi isə informasiya xidmətləri hesabına formalaşır. Lakin informasiya xidmətlərinin dəyəri rabitə xidmətlərinə nisbətən daha üstün sürətlə artır: 2010-2018-ci illərdə informasiya xidmətlərinin dəyəri 92 milyon manatdan 455 milyon manata çatıb (artım 5 dəfə). Rabitə xidmətlərinin dəyəri isə 1 milyard 88 milyon manatdan 1 milyard 442 milyon manata (artım 32.3 faiz) yüksəlib”.

***R.Ağayevin sözlərinə görə, telekommunikasiya sektorundakı aparıcı dövlət müəssisələrində menecment strukturunun formal hüquqi tələblər baxımından korporativ idarəetmə modelinə nə dərəcədə uyğun gəldiyini rəsmi sənədlər əsasında dəyərləndirmək mümkünsüzdür:***

“Əvvəla, bu şirkətlərin heç birinin idarəetmə strukturuna dair informasiyalar, onların fəaliyyətini tənzimləyən əsas sənəd (Nizamnamə) ictimaiyyət üçün əlçatan deyil. Qurumların internet saytlarında idarəetmə strukturu və onların fəaliyyətini tənzimləyən əsas hüquqi sənədlərlə bağlı heç bir məlumat yerləşdirilməyib. Dövlət telekommunikasiya müəssisələrinin hesabatlılıq və məlumat açıqlığı təcrübəsi də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının korporativ idarəetmə standartlarına cavab vermir. Telekommunikasiya sektorunda fəaliyyət göstərən aparıcı şirkətlərinin hesabatları nəinki korporativ idarəetmə ilə bağlı beynəlxalq standartların, eləcə də milli qanunvericiliyin tələbləri ödənmir. Bu şirkətlərin heç birinin nizamnamə məqsədlərinə uyğun fəaliyyətlərinə və onların nəticələrinə dair ümumi hesabat ümumiyyətlə açıqlanmır Bu cür hesabatlarda göstərilən xidmətlər, onların strukturu, həcmi, dinamikası, coğrafi bölgüsü barədə informasiyaların olması çox mühümdür”.

***R.Ağayev qeyd edir ki, “Aztelekom” MMC və “Bakı Telefon Rabitəsi” MMC-nin maliyyə hesabatları son dərəcə məhdud informasiya təqdim edir: hər ikisinin hesabatı eyni struktura və məlumat tutumuna malikdir:***

“Yalnız müəssisələrin ümumi gəlir və xərcləri, onların məhdud səviyyədə strukturu barədə məlumat açıqlayır. “Azİntelekom” MMC-nin maliyyə hesabatı bu 2 şirkətlə müqayisədə daha əhatəlidir”.

***Hesabatlardan telekommunikasiya sektorunda fəaliyyət göstərən 3 aparıcı dövlət şirkətindən heç birinin dövlət büdcəsindən birbaşa vəsait almadığı görünür:***

"Lakin tabeçiliklərində olduqları Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi vasitəsilə mərkəzləşdirilmiş qaydada, müxtəlif investisiya layihələrinin dəstəklənməsi üçün sərmayələrin yönəldilib-yönəldilmədiyi barədə hər hansı açıq mənbədə məlumat yoxdur. Şirkətlərin dövlət büdcəsi qarşısında öhdəlikləri, tədiyə növləri üzrə öhdəliklərin strukturu barədə də hesabatlarda hər hansı məlumat açıqlanmır. Eyni zamanda şirkətlərin öz gəlir mənbələri və borclanma hesabına həyata keçirdikləri investisiya layihələri barədə də məlumatlar ictimaiyyət üçün qapalıdır. Dövlət müəssisələrinin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun hazırlanması yalnız şəffaflıq baxımından önəmli deyil. Bu cür hesabatlar həmçinin adıçəkilən subyektlərin fəaliyyətinin səmərəliliyini də ölçmək baxımından zəruri məlumat bazası formalaşdırır. Qeyd edim ki, artıq ötən ildən etibarən fəaliyyətin səmərəliliyinin ölçülməsi dövlət təsərrüfat subyektləri üçün hüquqi öhdəliyə çevrilib. Bu, Nazirlər Kabinetinin 57 saylı (04.06.2019) qərarı ilə təsdiqlənən "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi Qaydası"nda əksini tapıb".

***Ekspert bildirir ki, son 30 ildə dünyada telekommunikasiya və rabitə xidmətlərinin dövlətsizləşdirilməsi təcrübəsi geniş yayılıb:***

"Uzunmüddətli araşdırmalar və empirik analizlər rəqabətsiz mühitdə fəaliyyət göstərən dövlət rabitə xidmətlərinin xərclərinin yüksək, xidmətlərin məhsuldarlığının və keyfiyyətinin aşağı olduğunu üzə çıxarıb. Əsas səbəb dövlətin inhisarçı şirkətlərinin rəqabətə ehtiyac duymaması və texnoloji dəyişikliklərə çevik reaksiya verməməsidir. Müxtəlif ölkələrdə rabitə sektorunda başlayan liberallaşdırma dalğasının məqsədi bu sektorda rəqabəti və nəticədə istehlakçıların rabitə xidmətlərinə əlçatanlığının artırılması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi olub. Rəqabət formalaşdırılmadan alternativ operatorlar bazara maneəsiz daxil ola bilmir, hansısa operator(lar) bazarda hökmran mövqe tutur, rəqiblərə münasibətdə məhdudlaşdırıcı davranışlar nümayiş etdirir. Bu zaman əsas addımlardan biri rabitə sektorunda siyasət hazırlayan ali dövlət qurumundan (məsələn, Rabitə Nazirliyindən) asılı olmayan, avtonom bir tənzimləyici orqanın formalaşdırılması çox önəmlidir. Bu orqan müəyyən edilən siyasət çərçivələri daxilində bazar oyunçularının fəaliyyətini izləyir, rəqabət mühitini pisləşdirən istənilən operatora qarşı hüquqi alətlər əsasında qərarlar qəbul edir".

***Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün sözlərinə görə, ölkə prezidenti tərəfindən 2016-cı ildə təsdiqlənmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə sektorda idarəetmə strukturlarının təkmilləşdirilməsi məqsədilə müstəqil tənzimləmə orqanının yaradılması nəzərdə tutulsa da, bu istiqamətdə real addımlar atılmayıb.***



***Eyni zamanda dövlətə məxsus telekommunikasiya şirkətlərinin özəlləşdirilməsi üçün konkret addımlar və qrafik müəyyən olunsa da, bu istiqamətdə də hər hansı dəyişiklik yoxdur. Əvəzində NRYTN öz imkanlarından özəl sektorun sıxışdırılması üçün rahatlıqla istifadə edir:***

"Məsələn, "Aztelekom" regionlarda yeni miniATS-lər quraşdırmaqla özəl İnternet porvayderlərini müştərilərinə xidmət göstərmək imkanından tamamilə məhrum edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Çindən dövlət vəsaiti hesabına balaca, kiçik tutumlu ONU tipli mini ATS-lər (köməkçi ATS-lər) gətirib. Bu ATS-lər istifadəçilərə daha yaxın ərazilərdə fiber-optik xətt üzərindən quraşdırılır. Yəni hazırda mövcud olan ATS-lərlə müştəri arasında daha bir köməkçi ATS qurulur. Sual oluna bilər ki, bəs burada "innovasiya" hardadır? Bu yeniliyin "innovasiya" tərəfi ondan ibarətdir ki, bununla özəl provayderlərin müştərisini ələ keçirmək üçün unikal imkan yaranmış olur. Belə ki, yeni ATS-lərdə özəl provayderlərin öz avadanlıqlarını yerləşdirmək imkanı yoxdur. Və ya NRYTN qəsdən bu imkanı yaratmayıb. Xatırladım ki özəl provayderlər hər ay bir xeyli vəsait ödəməklə öz müştərilərinə xidmət göstərmək üçün köhnə ATS-lərdə avadanlıqlar yerləşdiriblər. Tətbiq olunan "innovasiyadan" sonra yeni ATS-lərdə belə bir imkandan məhrum olan özəl provaydrelərin köhnə ATS-lərdəki avadanlıqlarında "oturan" müştəriləri avtomatik olaraq NRYTN provayderlərinə keçir. Daha doğrusu keçirilir".

Rəsmi statistikaya görə, internet xidmətləri bazarında özəl sektorun nisbi üstünlüyü (55 faiz ətrafında) olsa da, 2010-2018-ci illərdə bu sektorun bazar payı sürətlə azalaraq təxminən 90 faizdən 55 faizə qədər geriləyib. R.Ağayev qeyd edir ki, hazırda Azərbaycanın telekommunikasiya sektorunda, xüsusilə sabit və mobil telefon xidmətləri bazarında çox az istisna ilə bütün oyunçular hökmran mövqeyə sahibdir.

***Müsahibimiz hesab edir ki, islahatların ilk mərhələsi olaraq telekommunikasiya şirkətlərində korporativ idarəetmə standartlarının tətbiqi, Direktorlar (Müşahidə) Şuralarının real fəaliyyəti və icra orqanları üzərində real nəzarət (təsir) imkanları təmin edilməlidir:***

"Bu şirkətlərin məlumat açıqlığına və şəffaflığına dair tələblər sərtləşdirilməlidir. Şirkətlərin fəaliyyətini tənzimləyən normativ sənədlər, onların strukturu və səlahiyyətli şəxsləri barədə məlumatlar internet resursları vasitəsilə ictimailəşdirilməlidir. Şirkətlərin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun tərtibi və açıqlanması təmin edilməli, Yol Xəritəsində nəzərdə tutulan hədəflərə uyğun olaraq islahatların 2-ci

mərhələsi kimi dövlətə məxsus telekommunikasiya şirkətlərinin dövlətsizləşdirilməsi prosesi başa çatdırılmalıdır. Bundan əlavə, telekommunikasiya şirkətlərinin dövlətsizləşdirilməsi modeli seçilərkən investisiya müsabiqələri vasitəsilə səhmlərin nəzarət zərfi strateji investora təklif edilsə də, Türkiyə modelində olduğu kimi səhmlərin müəyyən hissəsinin (25-30 faizi) fond birjası vasitəsilə açıq bazarda satışa çıxarılması məqsədəuyğundur. Yol Xəritəsində nəzərdə tutulan hədəflərə uyğun olaraq telekommunikasiya sektoru üzrə müstəqil tənzimləyici qurumun yaradılması və onun effektiv fəaliyyətinin təmin edilməsi prosesi qısa zamanda başa çatdırılmalıdır”.

Qeyd edək ki, rabitə və telekommunikasiya sahəsində Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icra vəziyyətinə dair Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə ünvanladığımız sorğuya cavab verilmədi.

**Dünya SAKİT,**

**“Yeni Müsavat”**